

Şirxan
ARANLI

## QAYĞINA HƏKİM

*(Milli Hematologiya və Transfiziologiya Mərkəzinin həkimi Novruzova Nərminə xanıma ithaf edirəm)*

*Ömür qismətinin qurub vədəsin,
Ərməğan eylədim qayğına həkim.
Tanrı nə yazıbsa təbib neyləsin
Güvəndim mən ancaq sayğına həkim.*

*İlk gündən qayğının bəhrini gördüm,
Şəfalı əllərin nələr yaratdı.
Təbib ürəyinin nəhrini gördüm
Qəlbimdə yaşamaq eşqi oyatdı*

*Tanrı xilaskartək yetirib səni
Mən tək xəstələrə əlac olmusan
Unudub gündəlik qayğı, qəmini,
Xəstə xidmətinə meyl salmısan*

*Hamıya doğmasan, hamıya əziz,
Xəstə zəhmətinin uğur payıdır.
Hər xəstə qəlbində salmısan bir iz,
Şəfqətin ülfətlə əkiz tayıdır.*

*Mehriban nəzərin xəstəyə məlhəm,
Nurlu baxışların əridir dərdi,
Ümid bəxş etdiyin ümidsizlər də,
Sanır ki, bu dərdi gəldi-gedərdi.*

*O inci, şəfalı, təbib əlinlə,
Tək xəstə dərdinə əlac deyilsən.
Təbib tək, insan tək saf xilqətinlə,
Xəstəni sağaldıb, ruhda verirsən.*

*İtirə bilmərəm haqqı-sayını,
Əmanət vermişdim xəstə can sənə.
Həkim əllərinin hikməti ilə,
Sağlam can, sönməz ruh bəxş edin mənə.*

## İNDİ HALIM NƏ GÜNDƏDİ

### (Xəstəxana duyğuları)

*Ömür axır, işindədir,
Dərd bədəni biçindədir,
Anlamır ki, qafil insan,,-
Ölüm gözün içindədir.*

*Arzularla çalışırdım,
Duyğularla yarışırdım,
Xoş iqbala alışırdım,-
İndi halım nə gündədir.*

*Ömür gün Tanrı qisməti,
Hər kəs dadır bu neməti ,
Həyat dönəndə zilləti,-
Ürəyinin közündədir.*

*Duyğular sinəmi dəlib,
Ahım göylərə yüksəlib,
Göydə Tanrı, yerdə təbib,-
Şəfa onlar əlindədir.*

*Ömür vəfa eyləməsə,
Tanrı dərdi əyləməsə,
Deyilməyən sözlərimin,-
Məzargahı könüldədir.*

## BU QIZ NİYƏ BELƏ NİGARAN QALIB

*Bu qız niyə belə nigaran qalıb,
Bu qızın qayğısı başından aşıb,
Özünü unudub, qardaş hayında,
Qardaş ağır xəstə, dərdlə cuğlaşıb.*

*Bu qız yaxşı bilir xəstə qardaşı,
Həyat, ölüm səddi arasındadır,
Ağlayır, qurumur gözümün yaşı
Çarəsi dilinin duasındadır.*

*Tanrı dərd yükünü çiynindən aşıb,
Bu yükü daşımaq çətindən çətin,
Bir az dözümlü ol, xəstə bacısı,
Sınaq meydanıdır, dayan, dur mətin.*

*Öz qayğın, öz dərdin yadından çıxıb,
Qardaş qayğısına bələnib ömrün,
Tale çox incidib, səni çox sıxıb,
Qayğılar içində ələnib könlün.*

## Ömür qismətimiz

*İllər ömrümüzdən nə tez sovuşdu,
Nə yatdıq, nə gördük ay ömrüm-günüm.
İllər elə bil ki, qanadlı quşdu,
Elə uçub getdi yetmədi ünüm.*

*Ömür yaşamışıq adidən adi,
Bəxtəvər günlərdən tac qoymamışıq.
İllər elə keçib ömür payından,
Acısın, şirinin heç duymamışıq.*

*Ömürün şərbətindən hələ doymamış,
Tanrı bol eylədi qayğı payını.
Qayğısız günlərə qədəm qoymamış,
Artırdı dərdlərin həddi-sayını.*

*Yolum qürubadır, bilirəm bunu
Bir gün qapımızı əcəl döyəcək.
Qoşa ömrümüzün yetişir sonu
Qismətin son payı bizi əyəcək.*

*Səksəkə yuxuna qonaq gələcəm,
Təsəlli payını qoxlayacaqsan.
Yerimdən, halımdan hal-əhval tutub,
Məni yuxuda da yoxlayacaqsan.*

*Heç zaman bil yalqız qoymaram səni,
Billəm, mənsizlikdən ömrün solacaq.
Yoxluğun əzsə də qəmli sinəni,
Hər vaxt ruhum sənə həyan olacaq.*

2022.- 15 oktyabr